Azərbaycan Respublikasının
Gənclər Fondunun Müşahidə
Şurasının 04 oktyabr 2018-ci il
tarixli Q-03 nömrəli Qərarı
ilə təsdiq edilmişdir.

# GƏNCLƏRİN VƏ GƏNCLƏR TƏŞKİLATLARININ AZƏRBAYCAN RESPUBLIKASININ GƏNCLƏR FONDUNUN VƏSAİTİ HESABINA BEYNƏLXALQ TƏDBİRLƏRDƏ İŞTİRAKININ MALİYYƏLƏŞDİRİLMƏSİ

# QAYDASI

## I. Ümumi müddəalar

1.1.“Gənclərin və gənclər təşkilatlarının Fondun vəsaiti hesabına beynəlxalq tədbirlərdə iştirakının maliyyələşdirilməsi Qaydası” (bundan sonra - Qayda) Azərbaycan Respublikasının Prezidentinin 29 avqust 2018-ci il tarixli 253 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər Fondunun vəsaitindən istifadə, o cümlədən Fondun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası“nın 10.1.4-cü, 10.5.1-ci və 10.5.2-ci yarımbəndlərinə və Azərbaycan Respublikasının Gənclər Fondunun (bundan sonra – Fond) Nizamnaməsi”nin 3.1.9-1-ci yarımbəndinə müvafiq olaraq hazırlanmışdır.

1.2. Beynəlxalq tədbirlə bağlı ehtiyac üzrə bütün xərclərin maliyyələşdirilməsi dedikdə iştirakçının tədbirdə nəqliyyat, yaşayış, viza, iştirak haqqı, sığorta, bunların hamısının və ya qismən ödənişi nəzərdə tutulur.

1.3. Namizədlərin müraciətləri ilə bağlı yekun qərar Fondun Müşahidə Şurasının sədrinin yazılı razılığı əsasında Fondun icraçı direktoru tərəfindən qəbul edlir.

## II. Müraciətin forması və şərtləri

2.1. Beynəlxalq tədbirdə iştirakın maliyyələşdirilməsi üçün müraciət etmək istəyən şəxs Fondun rəsmi internet səhifəsində (www.youthfoundation.az və ya www.ayf.az) və ya mobil tətbiqdə (GencApp) müvafiq qaydada qeydiyyatdan keçməli, şifrə və parol almalıdır.

2.2. Beynəlxalq tədbirdə iştirakın maliyyələşdirilməsi üçün yaşı 35-dək olan gənclər təşkilatlarının rəhbərləri,yaşı 35-dək gənc elmi tədqiqatçılar və 18–29 yaş həddində olan ictimai fəal, istedadlı, yaradıcı gənclər müraciət edə bilərlər.

2.3. Müraciət beynəlxalq tədbirin başlayacağı vaxtdan azı 30 (otuz) iş günündən əvvəl (Xüsusi hallar istisna olmaqla (fövqaladə hallar, dövlət əhəmiyyətli tədbirlər, planlaşdırılmayan tədbir, müsabiqənin nəticələri əsasında hər hansı mərhələyə vəsiqə qazanma halları və s. nəzərdə tutulur)) edilməlidir.

2.4. Müraciət edən şəxs Fondun rəsmi internet səhifəsində və ya mobil tətbiqdə təqdim olunmuş ərizə formasını Azərbaycan dilində elektron qaydada tam doldurmalı, hər bir suala ətraflı cavab verməli, əsaslandırmalı və tələb olunan sənədləri əlavə etməlidir.

Namizədlər Fondun rəsmi internet səhifəsində və ya mobil tətbiqdəki ərizə formasını doldurarkən 5 dəqiqədən artıq olmayaraq tədbirin işçi dilində iştirak etməkdə məqsədini əsaslandıran video müraciətlə çıxış etməlidir.

2.5. İştirakçı ölkəmizin və eləcə də səfər edəcək xarici ölkənin mövcud pandemiya vəziyyətini və şərtlərini nəzərə almalıdır.

2.6. Fond tərəfindən beynəlxalq tədbirdə iştirakı məqbul hesab edilmiş namizədlərdən aşağıdakı əlavə sənədlər tələb olunacaq:

2.6.1 Sağlamlıq haqqında arayış;

2.6.2 beynəlxalq tədbirdə iştirak edəcək şəxsə ünvanlanmış rəsmi dəvətnamə (dəvətnamə təşkilatın rəsmi blankında və rəhbər şəxsin imzası ilə olmalıdır);

2.6.3 şəxsə ünvanlanmış rəsmi dəvətnamədə beynəlxalq tədbirdə iştirak etmək üçün tələb olunan nəqliyyat, yaşayış və s. xərcin təşkilatçı tərəfindən ödənilməməsinə dair məlumat öz əksini tapmalıdır.

2.6.4 tədbirin proqramı;

2.6.5 müraciət edən şəxsin tədbirdəki çıxışının tezisi və ya təqdimat materialları (əgər olarsa);

2.6.6 olimpiada və ya müsabiqədə iştirak etmək üçün müraciət edən şəxsin həmin sahə üzrə göstəricilərini təsdiqləyən sənədlər (əgər olarsa);

2.6.7 müraciət edən şəxs tələbə olduqda, təhsil aldığı müəssisənin rəhbərliyinin həmin şəxsin səfərdə iştirakı ilə bağlı razılıq məktubu,

2.6.8 müraciət edən şəxsin pasportunun surəti.

2.7 Tam və ya qismən maliyyələşmə barədə qərar Fond tərəfindən qəbul olunur.

2.8. Tədbirin keçiriləcəyi günlərin sayından asılı olmayaraq, yaşayış xərci Fond tərəfindən maksimum 10 (on) gün üçün ödənilə bilər. Ödəniləcək məbləğ Şura tərəfindən müəyyən olunmuş cədvəl əsasında ödənilir (Əlavə 1).

2.9 Beynəlxalq tədbirlərdə iştirakın maliyyələşdirilməsi üzrə müraciətlərin qəbulu mütəmadim xarakter daşıyır.

2.10 Beynəlxalq tədbirdə iştirak etmək üçün hər bir şəxs il ərzində Fonddan bir dəfə vəsait ala bilər.

2.11. Aşağıda qeyd olunan şəxslər beynəlxalq tədbirlərdə iştirakının maliyyələşdirilməsi üzrə müraciət edə bilməz:

2.11.1 Fonddan maliyyə vəsaiti almış, lakin hesabatı təqdim etməmiş şəxslər;

2.11.2. hərbi qulluqçular və dövlət qulluqçuları;

2.11.3. beynəlxalq tədbirin keçirildiyi şəhərdə yaşayan Azərbaycan Respublikası vətəndaşları;

2.11.4 ixtisası və ya fəaliyyət sahəsi tədbirin mövzusuna uyğun olmayan şəxslər;

2.11.5. qanunvericiliyin tələblərini pozmuş və barəsində məhkəmə qərarı olan şəxslər;

2.11.6. xarici ölkə vətəndaşları və vətəndaşlığı olmayan şəxslər.

2.11.7 Sözügedən tədbir üçün eyni xərc üzrə digər sponsordan (qurumdan)_ artıq dəstək alan şəxslər.

2.12. Fond beynəlxalq tədbirdə iştirak edən şəxsin beynəlxalq tədbirin keçirildiyi müddətdə işlədiyi və ya təhsil aldığı müəssisədə olmadığı günlərə görə məsuliyyətdaşımır.

2.13. Siyasi və dini yönümlü tədbirlərdə, təlim, seminar və yay məktəblərində, turizm səfərləri, elmi konfranslarda dinləyici qismində iştirak (və bu tip tədbirlər) və xarici ölkələrdə təşkil olunan idman yarışlarında iştirak Fond tərəfindən maliyyələşdirilmir.

2.14. Qrup şəkilində iştirak zəruri hesab edilən tədbirlərdə iştirak etmək üçün təqdim olunmuş müraciətlər istisna olmaqla, bir neçə şəxs eyni beynəlxalq tədbirdə iştirak etmək üçün müraciət etdikdə, bir qayda olaraq onlardan yalnız birinin iştirakı aşağıdakı bəndlərə üstünlük verilərək maliyyələşdirilə bilər:

2.14.1. Azərbaycan Respublikasının üzv olduğu və sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar tərəfindən təşkil edilən tədbirlər;

2.14.2. Azərbaycanda fəaliyyət göstərən gənclər təşkilatlarının üzv olduğu beynəlxalq gənclər təşkilatlarının təşkil etdiyi tədbirlər;

2.14.3. Müsabiqə formatlı və ya iştirakçının tədbirdə moderator, təlimçi və s. aktiv iştirakı nəzərdə tutulan tədbirlər.

## III. Müraciətin qiymətləndirilməsi

3.1. Müraciətin qiymətləndirilməsi 3 mərhələdə həyata keçirilir:

3.1.1. müraciətin bu Qaydalara uyğunluğunun araşdırılması;

3.1.2. müraciət edən şəxslə müsahibənin aparılması və müvafiq arayışın hazırlanması;

3.1.3. yekun qərarın qəbul edilməsi.

3.2. Müraciətin bu Qaydalara uyğunluğunun yoxlanılması, müraciət edən şəxslə müsahibənin aparılması və müvafiq arayışın hazırlanması Fond tərəfindən həyata keçirilir.

3.3. Fond aşağıda qeyd edilən vəzifələri icra edir:

3.3.1. müraciətin qeydiyyatını aparır;

3.3.2. ərizənin və ona əlavə olunmuş sənədlərin uyğunluğunu, verilmiş məlumatların dəqiqliyini yoxlayır;

3.3.3. bir şəxsin il ərzində beynəlxalq tədbirdə iştirakla bağlı neçə dəfə Fonddan vəsait əldə etdiyini və səfər üçün digər mənbələrdən maliyyə vəsaiti əldə edib-etmədiyini müəyyənləşdirir;

3.3.4. müraciətçinin əvvəllər aldığı maliyyə ilə bağlı hesabatlılıq vəziyyətini araşdırır;

3.3.5. müraciət edən şəxsi müsahibəyə dəvət edir;

3.3.6. onun tədbirlə bağlı məlumatlılıq səviyyəsini və xarici dil biliklərini müəyyənləşdirir;

3.3.7. səfər edəcəyi xarici ölkənin Covid-19 pandemiyası ilə bağlı mövcud vəziyyətini nəzərə alır;

3.3.8. iştirakçının məhkumluğu ilə bağlı müvafiq sorğular göndərir;

3.3.9. səfərlə bağlı tələb olunan digər məsələləri aydınlaşdırır;

3.3.8. müvafiq arayış hazırlayaraq Fondun icraçı direktoruna təqdim edir.

3.4. Müraciətlə bağlı Fondun Müşahidə Şurası sədrinin yazılı razılığı əsasında Fondun icraçı direktoru tərəfindən yekun qərar qəbul edilir. Yekun qərar barədə məlumat müraciət edənə elektron və ya məktub formasında, “GencApp” mobil tətbiqində “Bildiriş” formasında göndərilir.

3.5. Maliyyələşdirilməsi barədə qərar qəbul edildikdən sonra müraciət üzrə tərəflər arasında “Maliyyə dəstəyinin göstərilməsi haqqında qrant müqavilə”si bağlanılır və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydaları”na uyğun olaraq qeydiyyat orqanına müraciət edilir. Qrant müqaviləsi tərəflərə və qeydiyyat orqanına təqdim olunması üçün müvafiq sayda imzalanır. Müraciət edən şəxs üzrlü səbəbdən Azərbaycan Respublikasında olmadıqda, Fond onunla müsahibəni telefon və ya digər əlaqə vasitələri ilə həyata keçirir. Müraciət edən şəxs üzrlü səbəbdən Azərbaycan Respublikasında olmadıqda, “Maliyyə dəstəyinin göstərilməsi haqqında qrant müqavilə”sinin imzalanması, təsviri və maliyyə hesabatlarının təqdim olunması həmin şəxsin notarial təsdiq qaydasında etibarnamə verdiyi digər şəxs tərəfindən həyata keçirilir (Əlavə 2).

## IV. Yaşayış xərci

4.1. Yaşayış xərcinin verilməsi 2 mərhələdə həyata keçirilir. Səfərdən əvvəl vəsaitin 70 faizi, səfər başa çatdıqdan və yekun hesabat təqdim edildikdən sonra isə qalıq 30 faiz ödənilir.

4.2. Ayrılmış vəsait Azərbaycan manatı (AZN) ilə ödənilir.

4.3. Ödəniş edilən zaman, beynəlxalq tədbirdə iştirak ilə bağlı yazılı qərar qəbul edildiyi gün üçün Azərbaycan Respublikası Mərkəzi Bankının qüvvədə olan məzənnəsi əsas götürülür.

4.4. Səfər baş tutmadıqda və ya təxirə salındıqda, ödənilmiş vəsait Fonda qaytarılır.

4.5. Fond tərəfindən səfərlə bağlı vəsaitin köçürülməsi prosesinə tədbirin başlamasından ən çoxu 10 (on) təqvim günü əvvəl başlanır.

## V. Hesabatlılıq

5.1. Beynəlxalq səfər başa çatdıqdan sonra 5 (beş) iş günündən gec olmayaraq, müvafiq təsviri və maliyyə hesabatı təsdiqləyici sənədlərlə birlikdə Fonda təqdim edilməlidir.

5.2. Hesabatlar Fond tərəfindən təsdiq edilmiş formalara uyğun olaraq, Azərbaycan dilində tərtib edilir.

5.3. Qrup şəklində beynəlxalq tədbirdə iştirak edən şəxslərin hesabatları ayrı-ayrılıqda qəbul edilir.

5.4. Ayrılmış vəsait tam xərclənmədikdə, qalıq məbləğ Fonda qaytarılır.

5.5. Fond hesabatların yoxlanılması prosesində səfər və onun nəticələri barədə daha ətraflı təsəvvür əldə etmək üçün beynəlxalq tədbirdə iştirak edəndən əlavə məlumatvə sənədlər tələb edə bilər.

5.6. Fond təqdim olunmuş hesabatları yoxladıqdan sonra onları təsdiq edir və bu barədə beynəlxalq tədbirdə iştirak edəni məlumatlandırır.

## VI. Yekun müddəalar

6.1. Fond ayrılmış vəsaitin təyinatı üzrə xərclənmədiyini, gənclər və gənclər təşkilatlarının nümayəndəsinin beynəlxalq tədbirdə iştirak etmədiyini və ya digər pozuntuları aşkar edərsə, onun maliyyə dəstəyi almaq imkanlarını 2 (iki) il müddətinədək məhdudlaşdırır, ciddi pozuntular aşkar edilərsə vəsaitin geri qaytarılması haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tədbirlər görür.

6.2. Beynəlxalq tədbirdə iştirakın maliyyələşdirilməsi ilə bağlı məlumat Fonduninternet səhifəsində yerləşdirilir.